

Bilal Alarlı

## XIRDA

Vaxtında görmədiyim xırda işlər
indi cücərib böyüyür,
boy atır mənimlə,
xırdalıqların
zirvəsinə çatır mənimlə.
Görmədyim xırda işlər
böyük əngələ dönür,
Allahın bəlası kimi
göydən enir.
Xırda işlərin
böyük kölgəsi düşür üzümə.
Görmədiyim xırda işlər
xırda-xırda girir gözümə.
Göz aça bilmirəm,
xırdalıqlardan qaça bilmirəm.
Mən elə düşünürdüm
böyüyün böyük yeri var,
xırdanın xırda.
Xırda deyib,
baş qoşmadığım işlər
və xırda ”kişilər”
böyüyüb yekə dərd olur
axırda...

## ŞƏKİL

Siz elə bilirsiniz
sizin şəklinizi çəkmirəm
gözlərimə?
Mən də belə rəssamam,
rəng qatmışam sözlərimə.
Üzünüzü çəkirəm,
gah qırmızı düşür,
gah da qara.
Özünüzü çəkirəm,
ləkə kimi yapışırsınız
ağ varaqlara.
Yox, yox, mən sizi qızartmıram
nahaq yerə.
Nə də üstünüzdən xətt çəkib
qaralamıram
qara əməllərinizə görə.
Şəkliniz
olduğunuz kimi alınır
gözümdə.
Heyrət içindəyəm
özüm də.
Şəklinizi çəkə-çəkə
fikrim dəyişir.
Siz necə, çəkirsiniz məni?
Gözünüzdə şəklim necə düşür?
Gözünüzdən düşmürəm ki?!

## BUMERANQ

Hardasınız unutduqlarım?
Hardasınız məni unudanlar?
Unutmayın, unudulmayın!
Dabanqırma ardınızca gəlirəm,
məndən geri qalmayın!
Bundan belə
sizin kimi dostum olmayacaq,
bundan belə mənim kimi
dostunuz olmayacaq.
Ömür vəfa eləməyəcək,
dünya sizə qalmayacaq,
dünya mənə qalmayacaq.
Atdan düşüb ata minmək
gecdi daha,
atlanası vaxtımız keçdi daha.
Bizi elə biz yada salacağıq.
Bizim tanımadıqlarımız bizi tanımır,
tanıdıqlarımızın yadında qalacağıq.
Hardasınız məni unudanlar?
Hardasınız mənim unutduqlarım?
Bumeranq kimi
qayıdıb özümə dəyir... atdıqlarım.

## DƏYƏR

Deyirsən, səni itirdim,
dəyərini bilmədim,
arzularımdakı,
xəyallarımdakı
yerini bilmədim...
Həyatımı alt-üst eləyib getmisən,
həm səni itirmişəm,
həm özümü.
Alıbsan əlimdən
gecəmi,
gündüzümü.
Mən sənin özünü gəzirəm,
xəyalımdakı yerini neynirəm?!
Mənim ki, əlimi boşda qoymusan,
yad əlində
qızıla dönmüş
dəyərini neynirəm!

## İLLƏR

Hər şeyin geriyə dönüşü var,
keçdiyimiz yollar kimidi,
yoxuşu var,
enişi var.
Bircə ömür yolu geri qayıtmır.
Mürgü döyən illəri təzədən oyatmır
nə xatirələr,
nə də acılı-şirinli xəyallar...
Mənalı-mənasız ömür gəlib gedir,
yaşanmış illər
ən əziz adamın kimi
ölüb gedir.
Nə əlimiz çatır,
nə ünümüz yetir,
hər il
ömür yolumuzdan
bir dəfə ötür.
Nə biz o illərə qayıdırıq,
nə o illər bizə.
İllər bizim qolumuzdan tutub
ömür yoluna çıxarır,
biz illərin əlindən tutub
yol gedirik
özümüzə.

## QAYIDIŞ

Gərək qayıtmayaydın,
o gedən gedəydin,
məni bu əbədi ayrılığa öyrədəydin.
Qayıtdın,
əritdin həsrətin şirin yanğısını,
alt-üst elədin
özünlə bağlı xoş xəyalları.
Gəlişin yerini vermədi
yuxumu qaçıran cavabsız sualların.
Endin xatirələrin həsrət zirvəsindən,
bu dönüşdən intizar yaxşıdı,
bu vüsaldan ahu-zar yaxşıdı.
İlqarını, əhdini tapdayıb getmişdin,
danmışdın vədini-sözünü,
gərək qayıdıb
gözümdən salmayaydın özünü.
Gərək əlimdən almayaydın
səninlə bağlı xoş xatirəmi,
məni bihuş edən
sərxoş xatirəmi.
Bu acı həqiqətdən
şirin həsrət gözəl idi,
sənin alnına yazılan vüsal,
mənim bəxtimə düşən
ayrılıq adlı qismət gözəl idi.
Qayıdıb alt-üst elədin
özünlə bağlı
xoş xatirəmi...

## ÖLÜM

Ölürəm deyə-deyə
çox yaşayıram
atamdan,
əmimdən...
Fələk xəbər tutmayıb
kədərimdən,
qəmimdən.
Bəlkə də uzun ömür istəsəydim,
Tanrı
arzuladığım ölümü
vaxtında göndərərdi.
Yorğanım sinədan,
balışım başdaşı olardı,
axirət sarayında
üzümü qibləyə döndərərdim.
Ölürəm deyə-deyə qalmışam,
yaşa dolmuşam,
qocalmışam.
Hər gün bir günah,
hər gün bir xəta edirəm.
Heç özüm də bilmirəm,
ömrün dalanına üz tutub
hara gedirəm?!
Dostlarım,
tanışlarım köçünü çatıb gedir,
arzusunu, istəyini atıb gedir.
Mən də gedirəm... dostların yuyatına,
tanışların yasına
qırxından ilinədək.
Özüm də bilmirəm,
məni bu yolda
nələr gözləyir
ölənədək!
Ölürəm deyə-deyə gedirəm... özümü
yerdən götürməyə.
Qapısını döyüb əcəlin
qəflət yuxusundan oyadıram.
Hər dəfə əliboş qayıdıram.
Elə bilirəm,
qismətimi,
taleyimi azdırıb gəlirəm,
dostların,
tanışların qəbrində
özümü basdırıb gəlirəm
ölürəm deyə-deyə...